**TURANƏ QURBANOVA**
**Azərbaycan Dillər Universiteti**
**Rəşid Behbudov 134**
**qurbanova-t@list.ru**

# MƏTNİN FORMALAŞMASINDA RETROSPEKSİYA VƏ PROSPEKSİYANIN ƏHƏMİYYƏTİ

**Xülasə**

Bu məqalədə mətnin formalaşmasında onun komponentləri arasında olan əlaqə vasitələrindən bəhs olunur. Mətndə retrospeksiya və prospeksiyadan danışarkən zaman və məkan anlayışlarından və onların mətndə realizasiyasından danışmaq vacibdir. Məhz bu kateqoriyaların, xüsusən də retrospeksiyanın köməyilə oxucu mətndə zaman əlaqəsi məsələsini anlayır. Mətndə retrospeksiya implisit yolla verilir. Bu oxucunun beynində olan əvvəlki məlumatı yeni məlumatla əlaqələndirir və keçmiş haqqında danışmağa imkan verir.

Prospeksiya isə fərqli anlayışdır. Prospeksiya retrospeksiyadan fərqli olaraq eksplisit yolla verilir. Bu kateqoriyada əsas diqqət keçmişdə baş vermişlərə deyil mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir.

Hər bir mətn müəyyən dərəcədə retrospeksiyanın xüsusiyyətlərini daşıyır. Məlum məsələdir ki, yeni informasiyanın qəbulu köhnəni yadda saxlamadan qeyri mümkündür. Retrospeksiya bir neçə üsulla ifadə oluna bilər. Lakin bunlardan ən əsası təkrardır. Özlüyündə retrospeksiya da fikirlərin təkrarıdır.

Mətnlərdə prospeksiyanın göstəricisi kimi bir çox ifadələr verilə bilər. Məsələn, əvvələ qayıdaraq, yuxarıda qeyd olunduğu kimi və s.Bu əlaqə vasitələrinin köməyilə oxucu müxtəlif fakt və hadisələr arasında uyğunluq taparaq onları daha yaxşı anlaya və hadisələrin inkişaf ardıcıllığını duya bilir.

Mətn dilçiliyinin başqa kateqoriyaları kimi bu kateqoriyalar da koheziya, informativlik və s.ilə sıx əlaqəlidir.

**Açar sözlər**: mətn, məntiqi-semantik əlaqə, zəncirvari əlaqə, retrospeksiya, prospeksiya, əlavə-qabaqlayıcı informasiya

Mürəkkəb sintaktik bütöv çərçivəsində müxtəlif əlaqə vasitələri mətn yaratmaq potensialına malikdir. Qeyd etmək lazımdır ki, bu əlaqə vasitələri bir-biri ilə çox sıx, qarşılıqlı münasibətdədirlər, onlar bir-birini tələb edir, birgə iştirak edə bilir və nəhayət, bütöv mətnin komponentləri arasında qarşılıqlı semantik əlaqələrin mürəkkəb sistemini təşkil edirlər. Semantik münasibətlər və onların eksplisit formal göstəriciləri mətnin komponentləri arasında əlaqənin anlaşılması baxımından zəruridirlər.Mətndəki formal əlaqələndiricilərin qrammatik funksiyasının dəyişməz qalmasına baxmayaraq ötürülən fikirlər mətnin məzmununa və müəllifin kommunikativ məqsədlərinə müvafiq olaraq dəyişkən olur. A.Məmmədov da qeyd edir ki, mətndəki semantik münasibətlər formal vasitələrin yaranmasını şərtləndirir [2, 73].

Mətnin komponentləri arasında qarşılıqlı əlaqələr birmənalı olaraq seçilmir, çünki bunlar real həyatda mövcud olan və baş verən müxtəlif hadisə və halların dil quruluşunda inikasıdır.Mətn komponentləri arasında qarşılıqlı əlaqə mürəkkəb obyekti onun tərkibinə daxil olan hissələrin sadə çoxluğu kimi nəzərdən keçirməməyə imkan verir. Məhz, bu münasibətlərə görə mətn yalnız struktur tərkib hissənin deyil, həmçinin mürəkkəb, müxtəlif tipli məzmun – məna tutumunun yardımı ilə formalaşır.Mətnin linqvistik vahid kimi təhlili mətnlərin qrammatik –semantik siniflərinin yaradılmasını nəzərdə tutur. Məsələn, bir mürəkkəb sintaktik bütövün komponentləri arasında zaman ardıcıllığı, səbəb-nəticə münasibətləri daşıyan bağlayıcılar mütləq yeni-köhnə informasiya qarşıdurması, anaforik – kataforik əlaqəyə, yəni müxtəlif tipli təkrarlığa işarə edən deyktik elementlərlə birgə işlənir. Mətnin sonrakı komponentinə əvvəlki komponentdəki informasiyanın bir

hissəsini daxil etməklə formal kateqoriyalar yalnız artıq qəbul edilmiş informasiyanı xatırlatmır, həmçinin alınmaqda olan informasiyanı ona müəyyən münasibətdə qoyur və bununla da hər ikisinin ümumiliyi əldə olunur. Göründüyü kimi formal kateqoriyaların bir mətn komponentindən digərinə məntiqi keçidi onların məzmunlarının paralelizmini aşkarlayaraq təmin etməyə qadirdirlər.

İnformasiya öz gücünü ayrıca götürülmüş cümlədə deyil, məhz mətndə tapır. Prof. K.Abdullayev "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" əsərində haqlı olaraq qeyd edir ki, "Beləliklə, informasiya nəzəriyyəsinin məlum müddəasını tətbiq edərkən ayrıca götürülmüş cümlənin informativ, təbii ki, semantik naqisliyi sübut olunur və məhz bundan sonra "anlaşma prosesi üçün vacib olan informasiya bəs haradadır?" sualı ilə axtarışlara çıxsaq, ilkin olaraq mətnlə, yəni kommunikasiya aktında işləm məqamına malik olan və formal-semantik planda müəyyən eynicinslilik əsasında birləşən cümlələr birliyi ilə qarşılaşmalı oluruq" [1, 182].

Retrospeksiya və prospeksiya da mətnin kateqoriyaları hesab olunur. Mətndə retrospeksiya və prospeksiyadan danışarkən zaman və məkan anlayışlarından və onların mətndə realizasiyasından danışmaq vacibdir. Bu kateqoriyalar diskontinuumun bir forması hesab edilir. Məhz bu kateqoriyaların, xüsusən də retrospeksiyanın köməyilə oxucu mətndə "zaman əlaqəsi" məsələsini anlayır.

Qeyd etmək lazımdır ki, mətnlərin çoxunda retrospeksiya implisit yolla verilir. Bu oxucunun beynində olan əvvəlki məlumatı yeni məlumatla əlaqələndirir və keçmiş haqqında danışmağa imkan verir.Prospeksiya isə retrospeksiyadan fərqli anlayışdır. Yuxarıda qeyd olunduğu kimi retrospeksiya implisit yolla ifadə olunur. Prospeksiya isə onun əksinə olaraq eksplisit yolla verilir. Bu kateqoriyada əsas diqqət keçmişdə baş vermişlərə deyil, mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir. Lakin bu iki kateqoriya arasında fərqi daha aydın görmək üçün onları ayrı-ayrı nəzərdən keçirmək daha münasib olar.

Retrospeksiya mətnin qrammatik kateqoriyası olub, oxucuya faktiki informasiyanı qavramağa şərait yaradır. İ.Qalperin qeyd edir ki, retrospeksiya 2 cür ifadə oluna bilər:

1. Artıq keçmiş informasiya mətndə verilib.
2. Keçmiş informasiya mətndə verilməyib, lakin bu informasiya hadisələrin baş verməsi, ardıcıllığı üçün zəruridir. [7, 100]. Müəllif oxucunu əvvəl verilmiş faktlara qaytararaq, oxucunu bu faktlara önəm verməyə və yadda saxlamağa çağırır. Belə olan halda da retrospeksiya koheziya rolunda çıxış edir.Retrospeksiya mətndə hansı praqmatik mənanın verilməsindən asılı olaraq 3 cür ifadə oluna bilər:

1. oxucunun yaddaşında daha əvvəl verilmiş məlumatı bərpa etmək və yaxud ona keçmişlə əlaqəsi olan və gələcək hadisələri başa düşmək üçün vacib olan yeni informasiyanı ötürmək.
2. retrospeksiyaya qədər olan məlumatı yeni kontekstdə işlədə bilmək.
3. mətnin ayrı-ayrı hissələrini aktuallaşdırmaq. [7, 106]

Retrospeksiya xüsusilə mətnin yenidən yaxud da bir neçə dəfə oxunması zamanı daha asan qavranılır.Qeyd etmək lazımdır ki, demək olar ki, hər bir mətn müəyyən dərəcədə retrospeksiyanın xüsusiyyətlərini daşıyır. Məlum məsələdir ki, yeni informasiyanın qəbulu köhnəni yadda saxlamadan qeyri-mümkündür. Bədii əsərlərdə də müəllifin əsas rolu ondan ibarətdir ki, o, aktuallaşması vacib olan fakt və hadisələri oxucuya çatdırmalı və onu bu informasiyaları yadda saxlamağa sövq etməlidir.Retrospeksiya bir neçə üsulla mətndə ifadə oluna bilər. Lakin bunlardan ən əsası təkrardır. Özlüyündə retrospeksiyaya də təkrar kimi yanaşmaq mümkündür. Bu fikirlərin təkrarıdır.

Mətn dilçiliyinin başqa kateqoriyaları kimi retrospeksiya da digər mətn kateqoriyaları olan koheziya, informativlik, kontinuum və s. ilə əlaqəlidir. Retrospeksiyanın mətndə verilməsi bir növ oxucunu sonra baş verəcək hadisələrə hazırlayır.Qeyd olunduğu kimi, mətn kateqoriyaları bir-birilə əlaqəlidir. Aydındır ki, bir mətndə müxtəlif kateqoriyaları müşahidə etmək mümkündür.Retrospeksiya da kontinuum kateqoriyası ilə sıx əlaqəlidir.Retrospeksiyaya təkcə bədii mətnlərdə deyil, o cümlədən qəzet mətnlərində də tez-tez rast gəlmək mümkündür. Xüsusən də, publisistik məqalələrdə hər hansı hadisənin inkişafını verərkən, onu əvvəldən xatırladırlar ki, oxucu köhnə məlumatla yeninin əlaqəsini görə bilsin və yeni informasiyanı asanlıqla anlasın.

Bu məqsədlə bir qəzet mətnini nümunə kimi göstərmək olar:

*Over the past 540 million years, life on Earth has passed through five great mass extinctions. In each of those catastrophes, an estimated 75 percent or more of all species disappeared in a few million years or less.*

*For decades, scientists have warned that humans may be ushering in a sixth mass extinction, and recently a group of scientists at the University of California, Berkeley, tested the hypothesis. They applied new statistical methods to a new generation of fossil databases. As they reported last month in the journal Nature, the current rate of extinctions is far above normal. If endangered species continue to disappear, we will indeed experience a sixth extinction, over just the next few centuries or millennia.* [New York Times, April 3, 2011].

Verilən nümunədə də yeni informasiya, yəni yer kürəsində heyvan növlərinin bir çoxunun məhv olmaq üzrə olması və əgər belə gedərsə yer kürəsində altıncı böyük nəsil kəsilmə prosesinin baş verəcəyi bildirilir. Lakin bu yeni informasiya verilməmişdən əvvəl qeyd olunur ki, yer kürəsində keçən 540 milyon il ərzində 5 dəfə kütləvi şəkildə heyvanların nəsil kəsilmə prosesləri olmuşdur və bu proses bir neçə milyon il yaxud da daha az davam etmişdir.

Göründüyü kimi köhnə informasiyanın xatırladılmasında retrospeksiya köməyə çatır və bu kateqoriyanın vasitəsilə mətndə olan yeni informasiya köhnə ilə əlaqələnir.

İndi isə prospeksiya kateqoriyasına nəzər salaq. Bu kateqoriyanın köməyilə oxucu mətnin sonrakı hissələrində nədən söhbət gedəcəyini anlayır və bu xüsusiyyəti ilə də prospeksiya retrospeksiyadan fərqlənir.Mətnlərdə prospeksiyanın "göstəricisi" kimi bir çox ifadələr verilə bilər. Məsələn, *əvvələ qayıdaraq; yuxarıda qeyd olunduğu kimi; o biləndə necə də təəccüblənəcək; sonrakı hadisələr göstərəcək ki* və s. [7, 77]

Belə bir nümunəni nəzərdən keçirək:

*If there is one last art in the past decade or two, it's cooking real food. By "cooking", we don't mean warming up packaged food from the grocery store.*

*We are talking about preparing meals from fresh ingredients. That's how our parents and grandparents did it.*

*As it is mentioned above, making meal – whether it's just for yourself or a whole family, it's the one of the little rituals which forces us to slow down and be mindful of what we eat. It's also healthier, and an enormous money saver.* [6,51]

Bu nümunədə prospeksiyanın göstəricisi kimi *as it is mentioned above* (yuxarıda qeyd olunduğu kimi) ifadəsi verilmişdir. Burada bu ifadənin işlənməsi ilə oxucu mətnin sonrakı hissələrində də sağlam qidalanmadan söhbət gedəcəyini anlayır. Beləliklə də, prospeksiya mətnin anlanılmasında mühüm rol oynayır.Retrospeksiyada olduğu kimi prospeksiyada da oxucu müxtəlif fakt və hadisələr arasında uyğunluq taparaq, onları daha yaxşı anlaya və hadisələrin inkişaf ardıcıllığını duya bilir.Prospeksiya bir kateqoriya kimi təkcə bədii mətnlərə aid deyil. Bu kateqoriyaya elmi mətnlərdə də tez-tez rast gəlinir. Bu məqsədlə belə bir nümunəyə nəzər salaq:

*A research paper is, first and foremost, a form of written communication. Like other forms of nonfiction writing-letters, memos, reports, essays, books – it should present information and ideas clearly and effectively. But when students are asked to write research papers, they often become so preoccupied with gathering material, taking notes that they forget to apply the knowledge and skills they have acquired through previous writing experiences.*

*As it is mentioned, this discussion, therefore, begins with a brief review of the steps often outlined for expository writing. Although few writers follow such formal steps, keeping them in mind can suggest ways to proceed as you write.* [5, 22]

Nümunədən də göründüyü kimi, burada prospeksiya kateqoriyası işlənmiş və bu kateqoriya bir sıra formal göstəricilərlə vurğulanmışdır. Mətndə ilk öncə tədqiqat işinin yazılı kommunikasiyanın bir forması olduğu qeyd olunur. İkinci cümlədə isə digər elmi yazılar qeyd olunur və burada qeyd olunan yazı növləri müqayisə olunaraq digər bir elmi yazı – tədqiqat işi barədə danışmağa imkan verir. Növbəti cümlələrin birində isə *as it is mentioned* ifadəsi ilə sonra deyiləcəklərə bir növ hazırlıq aparılır. Yalnız bundan sonra tədqiqat işinin yazılması zamanı və gözlənilməli olan ardıcıl addımlar haqqında məlumat verilir. Göründüyü kimi, prospeksiyada əsas diqqət keçmişdə baş verənlərə deyil, mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir.

## Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 284 s.
2. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi. Bakı: Elm, 2001, 144 s.
3. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010, 96 s.
4. Hoey M. Textual Interaction. An Introduction to Written Discourse Analysis. Routledge, 2001, 203 p.
5. Lambrecht K. Information structure and sentence form: topic, focus and the mental representations of discourse referents. Cambridge University Press, 1994, 388 p.
6. Salkie R. Text and discourse analysis. Reutledge, 1995, 115 p.
7. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва: Наука, 1981, 138 с.
8. Гальперин И.Р. Информативность единиц языка. Москва, 1974, 175 с.
9. Папина А.Ф. Текст: его единицы и глобальные категории. Едиториал УРСС, 2002, 367 с.
10. Тураева З.Я. Категория времени. Время грамматическое и время художественные. Москва, 1979, 219 с.

*İnternet saytları:*

11. www.beaugrande.com/introduction_to_text_linguistics.htm
12. www.discourse-analysis.com
13. www.thesundaytimes.co.uk
14. www.time.com

**Т.Курбанова**

## Важность ретроспекции и проспекции в формировании текста

### Резюме

Данная статя освещает способы связи между компонентами в формировании текста. В статье необходимо затронуть понятия времени и места когда мы говорим о ретроспекции и проспекции в дискурсе и их реализации в тексте.

Именно с помощью этих категорий, в особенности, посредстом ретроспекции, читающий понимают проблему временной связи.В тексте ретроспекция передается имплицитно.Это позволяет читающему соединить предыдущую информацию с новой и говорить о прошлом.

Проспекция совсем другое понятие.Проспекция в отличие от ретроспекции выражается эксплицитно.В этой категории основное внимание уделяется не тому что произошло в прошлом, а тому, что произойдет потом.

В языкознании текста эти категории тесно связаны с другими категориями текста, такими как кохезия, информативность и другие.

Каждый текст в какой-то степени носит в себе черты ретроспекции.Известно, что принятие новой информации без сохранения в памяти прошлой информации невозможно.
Ретроспекция может быть выражена несколькими способами.Но из них самый важный способ-повтор.Сама по себе ретроспекция ето - повтор мыслей.В тексте показателем ретроспекции может быть много выражений.Например: возвращаясь к началу, как указывается выше и другие.С помощью этих способов связи читающий найдя сходств между различными фактами и событиями, может их лучше понять и осознать последовательность развития событий.

Ключевые слова: логико-семантическая связь, ценная связь, ретроспекция, проспекция, дополнительно-опережающая информация

**T.Gurbanova**

**The importance of retrospection and prospection in text forming**

**Summary**

This article deals with the importance of relations between the components of the text while text forming process.While speaking about retrospection and prospection in text analyses,it is important to mention time and place notions and their realisations in text.

By the help of these categories, specially with retrospection, the reader understands "the notion of time relation".Retrospection is given in implicit way in text.It connects the earlier information with the new one and gives way to speak about past.

Prospection is a different notion.Prospection is given in explicit way in text.In this category the main attention isn't given to the prior one,but the later one.

Each text is somehow has the features of retrospection.It is obvious that accepting new information is impossible without memorizing the old one.Retrospection can be given in different ways.However,the main one is repetition.Actually, retrospection is the repetition of ideas.

In discourse,as the main elements of prospection some expressions may be given. For example:turning to the back,as given above etc.

By the help of these categories the reader can find the relations between different facts and notions and can understand them better and can feel the sequence of notions in text.

As other categories of text linguistics these categories are related with cohesion,information and so on.

Keywords: text, logical-semanticrelations, chain connection, retrospection, prospection, extra-advance information

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 04.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Xatirə Süleymanova tərəfindən çapa tövsiyə olunmuşdur